# Dövlət qulluqçularının peşə bayramı təntənə ilə qeyd olundu



Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli sərəncamı ilə təsis olunmuş dövlət qulluqçularının peşə bayramı münasibətilə Samux Rayon İcra Hakimiyyətində tədbir keçirilmişdir. Tədbirdə təbrik nitqi ilə çıxış edən rayon icra hakimiyyətinin başçısı Alı Qocayev rayonun dövlət hakimiyyət orqanlarında çalışan şəxslərə peşə bayramı münasibətilə ən xoş arzularını çatdırdı.

Azərbaycanda dövlət qulluğunun müasir inkişaf tarixi 2000-ci ilin iyulunda ulu öndər Heydər Əliyevin imzaladığı "Dövlət qulluğu haqqında" Qanunla başladı. Ulu öndər Azərbaycan dövlətinin möhkəm bünövrəsinin qurulmasının əsas şərtlərindən biri kimi dövlət idarəçilik sisteminin yaradılmasına çox böyük diqqət vermişdir. Onun böyük ənənələri bu gün Azərbaycan Respublikasının Prezidenti, Heydər Əliyev məktəbinin yetişdirməsi və onun layiqli davamçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Samux rayonunun da dövlət qulluqçuları vəzifə öhdəliklərinin yerinə yetirilməsi və vətəndaşların müraciətlərinə operativ baxılması sahəsində işlərinin şəffaf və qanunauyğun görülməsinə çalışırlar. Artıq bir neçə ildir ənənəvi olaraq rayonun dövlət qulluqçularından fəalları ölkə rəhbərliyi tərəfindən mükafatlandırılır. Bu gün də həmin sevincli günlərdən biri yaşanır. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 iyun 2015-ci il tarixli sərəncamı ilə Samux Rayon İcra Hakimiyyəti aparatının aparıcı məsləhətçisi Kazımov Novruz Tamaz oğlu "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Sonra rayon rəhbəri Samux rayonunun ictimai-siyasi həyatında fəallıq göstərən bir qrup dövlət qulluqçularına "Fəxri fərman" və hədiyyələr təqdim etdi.

Tədbirdə çıxış edən YAP Samux Rayon Təşkilatının sədri Gündüz Bayramov və digər natiqlər peşə bayramı münasibətilə ürək sözlərini, arzu və təkliflərini bildirdilər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**